**01.08.2022: xəbər**

**You will bring something special back at the end of your Erasmus**

Hello, I am Ali Mehdiyev, 2nd course Computer Engineering student at Khazar University. It is my great pleasure to share my Erasmus+ student exchange experience at the Manisa Celal Bayar University of Turkey! My exchange period is the 2021-2022 summer semester (from February 2022 to June 2022). It was one of the best experience that a person can have in their life because both education and campus vibe is different from Khazar University, and I met many foreign students both at the university and at the university guesthouse. Meeting people from various countries and getting together with them in the same location had some advantages. Firstly, I improved my English language accent and fluency, since we didn’t have any other language in common. Secondly, it is a great opportunity to learn about new nationalities from foreign students and present information about your country.

The most important advantage is that, since all Erasmus students are new in the city, it’s easier to make conversation with them and hang out in the city when you arrive in the city. When we talk about Manisa, its nature is very great, and you can see the top of mountains from all places. People are also very friendly and hospitable, especially when they know you’re from Azerbaijan. Transport is cheap when you get your student card, and it has a schedule that makes it easier to use. There are great historical places a little bit far from Manisa which you can take the bus and visit those visiting places. One of them is Izmir which is situated approximately 30-40 minutes far from Manisa and it is very huge. You can take both the train and bus if you wish to visit Izmir. Izmir have also great places for visiting like "Ephesus", "Teleferik" and so on. One last thing, you don’t need to worry about expenses, because Erasmus+ Programme provides a grant that covers the whole exchange period. After one week that I arrived in Manisa, I received 80% of my scholarship and 20% in the last week before I returned to my sending university. I highly recommend everyone to experience this exchange at least once in their life, it will change their mind.

**Erasmus-dan əli boş dönməyəcəksiniz**

Salam, mən Əli Mehdiyev Xəzər Universitetinin Kompüter mühəndisliyi ixtisasının 2-ci kurs tələbəsiyəm. Türkiyənin Manisa Celal Bayar Universitetində keçirdiyim Erasmus+ tələbə mübadiləsi təcrübəmi bölüşməkdən böyük məmnunluq duyuram!

Mənim mübadilə dövrüm 2021-2022-ci tədris ilinin yay semestrinə təsadüf etdi (2022-ci ilin fevralından 2022-ci ilin iyununa qədər). Bu, insanın həyatında əldə edə biləcəyi ən yaxşı təcrübələrdən biri idi, çünki həm təhsil, həm də kampusdakı ab-hava Xəzər Universitetindən fərqlidir və mən həm universitetdə, eləcə də universitetin qonaq evində çoxlu əcnəbi tələbələrlə tanış oldum. Müxtəlif ölkələrdən olan insanlarla görüşmək və onlarla eyni məkanda bir araya gəlməyin bəzi üstünlükləri var idi. Birincisi, mən ingilis dilində səlis danışıq qabiliyyətimi yaxşılaşdırdım, çünki ondan başqa danışa biləcəyimiz ortaq dilimiz yox idi. İkincisi, bu, xarici tələbələrdən yeni millətlər haqqında öyrənmək və ölkəniz haqqında məlumat təqdim etmək üçün əla fürsətdir.

Ən mühüm üstünlük ondan ibarətdir ki, bütün Erasmus tələbələri şəhərdə yeni olduqları üçün onlarla söhbət etmək və şəhərdə vaxt keçirmək daha asandır. Manisaya gəldikdə isə, onun təbiəti çox möhtəşəmdir, hər yerdən dağların zirvəsini görmək olur. İnsanlar da çox mehriban və qonaqpərvərdirlər, xüsusən də Azərbaycandan olduğunuzu biləndə. Tələbə kartınızı aldığınız zaman nəqliyyat ucuz başa gəlir və onun istifadəsini asanlaşdıran qrafiki var.

Manisadan bir az aralıda avtobusla gedə biləcəyiniz böyük tarixi yerlər var. Bunlardan biri də Manisadan təxminən 30-40 dəqiqəlik məsafədə yerləşən və çox böyük olan İzmirdir. İzmiri ziyarət etmək istəyirsinizsə, həm qatar, həm də avtobusdan istifadə edə bilərsiniz. İzmirin “Efes”, “Teleferik” və s. kimi ziyarət üçün gözəl yerləri var.

Son olaraq qeyd edim ki, xərclərdən narahat olmaq lazım deyil, çünki Erasmus+ Proqramı bütün mübadilə dövründə bəs edəcək təqaüd verir. Manisaya gəldikdən bir həftə sonra təqaüdümün 80%-ni və ordan qayıtmazdan bir həftə əvvəl 20%-ni aldım. Hər kəsə həyatında ən azı bir dəfə bu mübadiləni yaşamağı çox tövsiyə edirəm, bu, onların fikrini dəyişəcək.





